AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

İNGİLİS DİLİNDƏ LİNQVİSTİK DEVİASİYALAR VƏ RİTORİKA

İxtisas: 5708.01 – German dilləri

Elm sahəsi: Filologiya

İddiaçı: **Züleyxa Murad qızı Bağırzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2024

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Hind-Avropa dilləri şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
Oruc İbrahim oğlu Musayev

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
Könül Elxan qızı Abdurəhmanova

filologiya üzrə fəlsəfə doktoru
Çinarə Zahid qızı Şahbazlı

filologiya üzrə fəlsəfə doktoru
Xəyalə Ramiz qızı Əhmədova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
Azad Yəhya oğlu Məmmədov

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
İradə Nadir qızı Sərdarova

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
Fəxrəddin Yadigar oğlu Veysəlli

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Ritorika və üslubiyyat ingilis ədəbiyyatının uzun təkamül prosesi keçmiş mədəni kontekstinin vacib komponentini təşkil edir. Üslubun müəyyənləş-məsində mühüm rol oynayan linqvistik deviasiyalar və ritorika arasındakı əlaqələrin araşdırılması müasir dilçiliyin aparıcı təmayüllərindən olan koqnitiv linqvistikaya mühüm töhfələr vəd edir. Deviasiyalara üslubiyyata dair yazılmış əsərlərdə daha çox rast gəlinir. Deviasiya həmçinin formal-qrammatik çərçivəyə sığmayan, istənilən dil vahidini ifadə etmək üçün törədici qrammatikada da işlədilir. Son illərdə deviasiya korpus və koqnitiv üslubiyyatda da təzahür etməyə başlamışdır. Poeziyada, bəlağətli nitqdə, xütbələrdə, təntənəli üslublarda bu dil hadisəsi özünü daha qabarıq büruzə verir. Dil strukturunun müxtəlif səviyyələrində çox vaxt deviasiya ilə paralelizm qarşılaşdırılır, birincisi gözlənilməz qaydasızlıq kimi xarakterizə olunduğu halda, ikincisi gözlənilməz qaydalılıq kimi səciyyələndirilir[1].

Müasir üslubiyyat nitqin müxtəlif növlərini, üslubları və s. tədqiq edir. Koqnitiv üslubiyyat daha üst mövqedə dayanır. Bu zaman o, koqnitiv linqvistikaya yaxınlaşmaqla ritorika ilə yanaşı, linqvistik deviasiyaları da ağuşuna alır. Ritorika koqnitiv linqvistikaya gedən yolun üzərində vacib körpüyə çevrilir. Ritorika daha çox intellektual məqsədlərə yönəldiyindən koqnisiya ilə sıx bağlıdır. Üslubiyyat isə ümumi dilçiliyin dilə canlı və dinamik varlıq kimi baxan ən ciddi sahəsi hesab olunur. Koqnisiya ritorika ilə üslubiyyat arasındakı əlaqələri idrak müstəvisinə çıxarır. Ritorik fiqurların çox vaxt deviasiyalar şəklində təzahür etməsi linqvistik deviasiyalarla ritorikanın vəhdətini şərtləndirir. Bu istiqamətdə araşdırmalar mövzunun aktuallığını səciyyələndirir.

Linqvistik-filoloji ədəbiyyatda dili fonetik, leksik, morfoloji, sintaktik, semantik, xüsusilə ritorik və stilistik istiqamətlərdə araşdıran əsərlərdə “norma” termini ilə yanaşı “deviasiyalar”, “anomaliyalar” kimi terminlərə də rast gəlinir. Qərb dilçiliyində

---

[1] Jeffries, L. Stylistics. / L.Jeffries, D.McIntyre. – Cambridge: Cambridge University Press, – 2010. – p. 31-33

mövzu ilə əlaqədar ilkin tədqiqatlar XVIII əsrdə başlanmışdır. XX əsrin son onilliklərində bu istiqamətdə aparılan tədqiqat işlərində daha çox istinad olunan mənbə C.Liçin ingilis ədəbiyyatı, poeziyası, üslubu ilə bağlı əsərləridir[2]. M.Montqomeri, A.Durant və başqalarının əsərlərində[3], P.Simpsonun üslubiyyat barəsində yazdığı monoqrafiyasında[4], H.Pletin alman dilində yazdığı[5] və ingilis dilinə tərcümə olunmuş ədəbi ritorika ilə əlaqədar əsərində[6] deviasiyanın müxtəlif növlərindən bəhs edilmişdir. Rus alimlərdən – N.D.Arutyunova, T.V.Bulıqina, A.D.Şmelev, İ.R.Qalperin, T.B.Radbil və s., Azərbaycan dilçilərdən isə O.Musayev, A.Axundov dərsliklərində, A.Hacıyeva tipoloji sapmalar probleminin tipoloji modifikasiya modelinin müəyyənləşməsi kontekstində, N.Cəfərov dil mədəniyyəti müstəvisində, T.Hacıyev Azərbaycan dil tarixinin inkişafında rolu, Q.Kazımov bədii dildəki özünə məxsus yerindən və müəllifin dil bacarıqlarındakı səriştə göstəricisi ilə bağlı məsələyə münasibət bildirmişdir. Bunlarla yanaşı, dünya linqvistik ədəbiyyatında müxtəlif dillərin materialları əsasında bütövlükdə ritorika və deviasiyaların növləri ilə bağlı ayrı-ayrılıqda araşdırmalar aparılmışdır[7]. Bütün bunlara baxmayaraq, indiyədək ingilis dilində linqvistik deviasiyalar və ritorika arasındakı əlaqələr sistemli araşdırmaya cəlb edilməmişdir.

---

[2] Leech, G. A Linguistic Guide to English Poetry/ G.Leech – London and New York: Routledge, – 1969. – 256 p.; Leech, G. Language in literature: style and foregrounding / G.Leech – London and New York: Routledge, – 2013. – 183 p.; Leech, G. Style in Fiction: A Linguistic Introduction to English Fictional Prose / G.Leech, M.Short. – New York: Pearson Longman, – 2007. – 404 p.

[3] Montgomery M. Ways of Reading. Third Edition. Advanced reading skills for students of English literature / M.Montgomery – London: Taylor & Francis e-Library, – 2006. – 378 p.

[4] Simpson, P. Stylistics: A Resource Book for Students / P.Simpson. – Studia Philologica. VII. Psychology Press, – 2004. – 247 p.

[5] Plett H. Systematische Rhetorik: Konzepte und Analysen / H.Plett – Exeter: Fink, – 2000. – 303 p.

[6] Plett H. Literary Rhetoric: Concepts–Structures–Analyses / H.Plett – Leiden-Boston: Brill, – 2010. – 232 p.

[7] Дюбуа, Ж. Общая риторика. Пер. с фр. / Ж.Дюбуа, Ф. Пир, А. Тринон и др.; Общ. ред. и вступ. ст. А.К.Авеличева. – Москва: Прогресс, – 1986. – 392 с.

Tədqiqatın obyekti və predmeti. Tədqiqat işinin obyekti ingilis ədəbi dili və onun deviativ variasiyalarıdır. Tədqiqat işində ədəbi mətnlərdəki danışıq tərzi, üslub, müəlliflərin dilindəki leksik, morfoloji dialektik və diatopik variasiyaları araşdırılır, ingilis dilində linqvistik deviasiyaların ritorikaya münasibəti aydınlaşdırılır.

Tədqiqat işinin predmeti ingilis dilində linqvistik deviasiyalar və ritorikanın qarşılıqlı əlaqələrinin araşdırılmasından hasil olan nəticələrin sistemləşdirilməsi və ümumiləşdirilməsi ilə səciyyələndirilir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqat işinin məqsədi ingilis dilində linqvistik deviasiyaların və ritorikanın mahiyyətini müəyyənləşdirmək, paralel olaraq ritorikanın koqnitiv üslubiyyat ilə əlaqəsinə aydınlıq gətirmək, linqvistik-stilistik müstəvidə onlar arasındakı qarşılıqlı əlaqələri dəqiqləşdirmək və perspektivləri təyin etməkdir.

Tədqiqat işində, başlıca olaraq, aşağıdakı konkret *vəzifələri* yerinə yetirmək qarşıya qoyulur:

– ingilis dilində linqvistik deviasiyaların parametrlərinin təyin olunması;

– deviasiyaların növlərinin araşdırılıb təhlil edilməsi;

– ritorika, poetika və koqnitiv üslubiyyat əlaqələrinin işıqlandırılması;

– ədəbi dilin linqvistik perspektivlərinin müəyyənləşdirilməsi;

– ritorik fiqurların deviant təzahürlərinin tədqiqi.

Linqvistik deviasiya və ritorika ilə bağlı ümumi nəzəri problemlərin tədqiq olunub üzə çıxarılması tədqiqat işimizin əsas məqsədini təşkil edir.

Tədqiqat metodları. Dissertasiya işində deskriptiv, kontrastiv, diaxronik, üslubi və kontekstual təhlil metodlarından istifadə edilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar:

1. Linqvistik və kontekstual səviyyələrdə “səhv” və “deviasiya” bir-birindən fərqlənir. Linqvistik deviasiyalar və ritorikadan bəhs edərkən linqvistik normanın preskriptiv və deskriptiv növləri diqqətdən kənarda qala bilməz. Deskripsiya, deviasiya və ritorika arasında sıx əlaqə mövcuddur;

2. Linqvistik deviasiyalar dilin bütün səviyyələrində özünü göstərir. Ritorik fiqur nitqin deviasiya vahidini təqdim edir;

3. Stilistik deviasiyalar qrammatik norma çərçivəsini aşsa da, ritorik zərurətdən irəli gəlir. Nitq fiqurlarının mahiyyəti adi işlənmədən fərqli olaraq məqsədli deviasiyalar şəklində təzahür etməklə səciyyələnir;

4. Ritorik fiqurlarda təzahür edən linqvistik deviasiyalar koqnitiv üslubiyyatın zəruri şərti kimi ortaya çıxır;

5. Ritorika və nitq fiqurları təfəkkür proseslərinə nüfuz etdiyindən linqvistik deviasiyalarla ritorikanın vəhdəti koqnitiv linqvistikaya gedən yolda körpü rolunu oynayır.

Tədqiqatın elmi yeniliyi. Təqdim edilən dissertasiya çərçivəsində ingilis dilində linqvistik deviasiya və ritorikanın qarşılıqlı əlaqəsinin inkişaf mexanizmi araşdırılır, stilistik-qrammatik və semantik təhlillər aparılır. Linqvistik deviasiyaların ifadə vasitələrinin müxtəlif xüsusiyyətləri konkret dil materialı əsasında izah olunur, deviasiyaların ritorik-poetik fiqurlarda təcəssümü koqnitiv-üslubi cəhətdən sistemli şəkildə araşdırılır. Qarşıya qoyulan məsələlərin sistemli şəkildə araşdırılması mövzunun elmi yeniliyini şərtləndirir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqatın nəzəri müddəaları linqvistik deviasiya və ritorikanın fərqli aspektlərinin, həmçinin dilçiliyin ritorika, qrammatika və koqnitiv üslubiyyat ilə bağlı ümumi nəzəri məsələlərinin, ədəbi dil problemlərinin tədqiq edilməsi üçün əhəmiyyətlidir.

Dissertasiyanın nəticələrindən xüsusi fənlərin tədrisində, dərs vəsaitlərinin hazırlanmasında, mühazirə və seminar məşğələlərində istifadə oluna bilər.

Aprobasiyası və tətbiqi. Tədqiqatın nəticələri Respublika və Beynəlxalq konfranslarda məruzə olunmuş və dissertantın çap olunmuş məqalə və tezislərində öz əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Hind-Avropa dilləri şöbəsində yerinə yetirilmişdir.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya

Giriş, üç fəsil, Nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 5 səhifə, 8162 işarə, I fəsil 36 səhifə, 68775 işarə, II fəsil 40 səhifə, 76410 işarə, III fəsil 39 səhifə, 68632 işarə, nəticə 3 səhifə, 4324 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 226303 işarədən ibarətdir.

TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın "Giriş" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqat işinin məqsəd və vəzifələri, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, elmi yeniliyi, metodları, işin aprobasiyası və tətbiqi, dissertasiyanın yerinə yetirildiyi təşkilat, tədqiqat işinin strukturu, dissertasiyanın işarə ilə ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiyanın **"İngilis dilində linqvistik deviasiyanın parametrləri**" adlanan I fəsli altı paraqrafdan ibarətdir.

I fəslin birinci paraqrafı ***"İngilis dilində norma – deviasiya əlaqəsi"*** adlanır. Bu paraqrafda fonetik, leksik, morfoloji, sintaktik, semantik və digər istiqamətlərdə "norma", "deviasiya", "anomaliya", "səhv" terminləri qarşılaşdırılır. Qərb dilçiliyində mövzu ilə əlaqədar ilkin tədqiqatlar XVIII əsrdə başlanmışdır. B.Kaçru *deviasiya*, *səhv* və *norma* terminlərini qarşılaşdırır [8]. Linqvistik və kontekstual səviyyələrdə "səhv" (mistake) dil daşıyıcıları tərəfindən qəbul edilməyə bilər, çünki, o, ingilis dilinin linqvistik "norma"sından uzaqdır, yəni sosial-mədəni kontekstdə qeyri-dil daşıyıcılarının müxtəlifliyinə istinad edərək buna bəraət qazandırmaq olmaz. Bundan başqa, deviasiyanın digər spesifik xüsusiyyətləri mövcuddur. Məsələn, "*deviasiya müxtəlifliyin hüdudlarında idiosinkratik (individual, özünəməxsus) yox, sistemlidir*" [9]. Bəzi fonetistlərin

[8] Kachru, B. Braj. The Other Tongue: English Across Cultures / B.Kachru – Urbana: University of Illinois Press, – 1992. – p.62

[9] Yenə orada, – s.62

fikrincə, bütün insanların nitqi aşağı səviyyədə deviasiyalarla doludur[10].

Deviasiya dilin istənilən səviyyəsində baş verə bilər. Məsələn, M. Pirsə görə, semantik deviasiya səviyyəsi zamanı məna əlaqələri qeyri-məntiqi və paradoksal şəkildə təzahür edir[11]. Bu zaman bir varlıq, yaxud konsept digərinin əsasında izah olunur, yeni informasiya əldə olunur. Məsələn: *To take us lands away*[12].

Leksik səviyyədə deviasiya bütövlükdə yeni sözlərin işlədilməsini əhatə edir. Bu zaman bir söz qrupuna mənsub olan söz başqa söz qrupuna mənsub söz qismində işlədilir. Məsələn: *"But me no buts!"* (*Üzrxahlığın yeri deyil*!)[13]. Bu, sintaksis və morfologiya müstəvisində də nəzərdən keçirilə bilər.

V.Şklovski, Y.Tınyanov, B. Eyhenbaum və R.Yakobson kimi erkən formalistlər ədəbi mediumun linqvistik konstituentlərinə xüsusi əhəmiyyət verərək öz nəzəri və deskriptiv tədqiqatları üçün yeni elmin bazasını yaratmışdırlar. Onların başlıca nəzəri pozisiyası ədəbi dilin *deviasiya* dili olması ilə xarakterizə olunurdu[14].

"Səhv" kimi götürülən bir çox deviasiyalar ingilis dilinin yerli variantlarında mövcuddur, amma qeyri-dil daşıyıcılarının bunlardan istifadəsi qəbul olunmur. Pedaqoqlar və ingilis dili mütəxəssislərinin apardıqları erkən tədqiqatlara görə, ingilis dilinin variantlarında rast gəlinən deviasiyalar xarici dil öyrənməkdə "nöqsan" kimi qəbul olunmuşdur.

I fəslin ikinci paraqrafı ***"Dil normalarının deskriptiv və preskriptiv növləri"*** adlanır.

---

[10] Kachru, B. Braj. The Alchemy of English: The Spread, Functions, and Models of Non-native Englishes / B.Kachru – Urbana: University of Illinois Press, – 1986. – 200 p.; Hock, H.H. Language History, Language Change, and Language Relationship: An Introduction to Historical and Comparative Linguistics. / H.H.Hock, D.J.Brian. – Berlin: Walter de Gruyter, – 2009. – p.143

[11] Pearce, M. The Routledge Dictionary of English Language Studies / M.Pearce – London and New York: Routledge, – 2012. – 224 p.

[12] Stephens M. The Rise of the Image, the Fall of the Word / M. Stephens – Oxford: Oxford University Press, – 1998. – 272 p.

[13] Dolgopolov, Y. A Dictionary of Confusable Phrases: More Than 10,000 Idioms and Collocations./ Y.Dolgopolov. – London: McFarland, – 2016. – p.62

[14] Jones, D. The Pronunciation of English. / D.Jones. – Cambridge University Press, – 1966. – p.124

F.Sössürdən başlayaraq bütün linqvistik tədqiqatların əsasında, demək olar ki, iki doktrina dayanır. Birincisi ondan ibarətdir ki, danışanlar üçün elmi-linqvistik ifadə preskripsiya deyildir. İkincisi ondan ibarətdir ki, xüsusi nəzəri baxışlar sisteminə görə, linqvistin hədəfi preskripsiyadan daha çox deskripsiya olmalıdır. Şübhəsiz ki, bu fikirlər strukturalistlər və transformalistlər tərəfindən postulat səviyyəsinə qaldırılmışdır[15].

Norma həm linqvistik, həm də statistik terminlərlə təsvir oluna bilər. Linqvistik normanın iki növü qeyd olunur: preskriptiv və deskriptiv. Deskriptiv norma danışanın, yaxud yazanın dilin forma və funksiyasında məqbul və ya qrammatik biliyini əks etdirir. Preskriptiv norma – dil istifadəsində düzgün və münasib hesab olunan sosial mənanı xarakterizə edir. Linqvistik normalar statik deyil. O, zaman keçdikcə, sosial, mədəni və coğrafi dəyişikliklərə məruz qalır, inkişaf edərək dəyişir.

V.Vimer deskriptiv normanı preskriptiv normadan belə fərqləndirir: "*əksər insanların nə etdiklərinin mənasını aydınlaşdıran deskriptiv normalardan fərqli olaraq, preskriptiv normalar insanların nə etməli olduqlarının mənasını müəyyənləşdirir*"[16]. Görünür, müəllif bu əsərində məsələyə linqvistik aspektdən daha çox sosial müstəvidə yanaşmışdır. Deskriptiv norma anlayışı daha çox sosiolinqvistlər tərəfindən işlədilir. Preskriptiv norma isə bütün dillərə tətbiq olunan qaydalar toplusudur[17].

Deskripsiya ilə preskripsiya arasındakı başlıca fərq tədqiqat obyektinin seçilməsindən ibarətdir. Deskriptivistlər deviasiyaları tənqid etmirlər, preskriptivistlər isə özlərini hamıya məxsus olan

---

[15]Newmeyer, F. Prescriptive grammar: a reappraisal // – Berlin: Walter de Gruyter, Approaches to Language: Anthropological Issues by William C. McCormack, Stephen A.Wurm. –2011. – p.581-595.

[16] Wymer, W. Innovations in Social Marketing and Public Health Communication: Improving the Quality of Life for Individuals and Communities / W.Wymer – Berlin Springer, – 2015. – p.136

[17] McGroarti, M. Language attitude, motivation and standards// Sociolinguistics and Language Teaching by Sandra Lee McKay. – Cambridge: Cambridge University Press, –1996. – p.22

dilin ağası kimi aparırlar[18]. Yunan və Roma qrammatiklərinin nəzərində deskriptiv linqvistika pedaqoji hədəflərə yönəlmişdir, onların preskriptiv normaları da deskriptiv cəhətdən adekvat idi[19].

Bir çox linqvistlər artıq ənənəvi yanaşmanın əksinə olaraq, preskripsiyanı deyil, deskripsiyanı özlərinin başlıca məqsədləri kimi nəzərdən keçirirlər. Hətta preskriptivizmi açıq-aşkar dəstəkləyənlər qınanılır. Bununla yanaşı, Oksford Universitetinin professoru, feminist dilçi D.Kamerona istinad edən M.R.Makkol deskripsiya ilə preskripsiya arasındakı fərqin, dilçilərin düşündükləri kimi, o qədər də böyük olmadığını söyləyir: *"after all, a description by its nature encourages a sense of what is 'normal' within a system"*[20]. – "*Nəticə etibarilə, deskripsiya öz təbiətinə görə sistemdə "normal" olan mənanı stimullaşdırır".*

Təbii ki, bu gün bütün dünyada beynəlxalq ünsiyyət vasitəsi rolunu oynayan ingilis dilinin vahid standart variantı üzərində israr etmək mümkün deyildir. Ona görə də, ingilisdilli ölkələrdə preskripsiya ilə deskripsiya arasında "balans" yaradılması vacibdir. Yəni deskripsiya və preskripsiya daim qarşılıqlı əlaqədə mövcud olub dilin inkişafını stimullaşdırır. Deskripsiyadan preskripsiyaya keçid ehtiyatla reallaşdırılmalıdır və bu, yalnız müxtəlif parametrlərin müfəssəl izahından sonra yerinə yetirilməlidir.

Dissertasiyanın I fəslinin üçüncü paraqrafı ***"İngilis dilində şivələr və dialektlər"*** adlanır. A.Hyüz ingilis dilinin variasiyalarından danışanda İngiltərə ingiliscəsi ilə İrlandiya ingiliscəsi arasındakı fərqləri göstərir. Hər iki coğrafiyada danışanlar ingilis ədəbi dil qaydalarından kənara çıxırlar. O, 23 Britaniya adasında eksperimentlər aparmış, müxtəlif fərqli şivələri araşdırmışdır[21].

---

[18] Lapaire, J. Séminaire pratique de linguistique anglaise / J.Lapaire. W.Rotgé. – Touluse: Presses Univ. du Mirail, – 1993. – p.39

[19] International Encyclopedia of Linguistics: [4-Volume] / Set by William Frawley. – Oxford: Oxford University Press, – 2003. – p.401

[20] McColl Millar, R. English Historical Sociolinguistics / R.McColl Millar. – Edinburg: Edinburgh University Press, – 2012. – p.105

[21] Hughes, A. English Accents and Dialects: An Introduction to Social and Regional Varieties of English in the British Isles / A.Hughes, P.Trudgill, D.Watt. – London and New York: Routledge, – 2013. – p.73

Öz daşıyıcılarının regional mənşəyi və sosial-iqtisadi fonu tərəfindən formalaşan dialektlər qrammatika və leksikaya, aksentlər (şivələr) isə tələffüz nümunələrinə görə fərqləndirilir. Standart ingilis dilinə xas dialektlə yanaşı, qazanılmış şivə tələffüzü Britaniya ingiliscəsinin nüfuzlu variantı hesab olunur. Halbuki bunlar danışanların sayına görə qeyri-standart regional variantların fövqündə dayanır.

Fikirlərimiz P.Simpsonun fikirləri ilə xeyli dərəcədə üst-üstə düşdüyündən onun stilistik analiz üçün xüsusi məna kəsb edən bəzi müddəalarından yan keçmək mümkün deyildir. Bütün nitq və yazı qaydaları standart, yaxud qeyri-standart, yüksək nüfuzlu, yaxud aşağı nüfuzlu olmasından asılı olmayaraq, hansısa bir dialekt üzərində qurulmuşdur. Aksentin tələffüz vasitəsilə müəyyənləşdirilən dil variantı olduğunu nəzərə alsaq, görərik ki, aksentin tədqiqinin yazılı ədəbi diskursun stilistik analizində heç bir yeri yoxdur. Bununla birlikdə, yazıçılar danışıq diskursunun xüsusiyyətlərini təqdim etmək üçün tez-tez yaradıcı texnikalardan istifadə edirlər. Məsələn, İrvin Uelsin romanından götürülmüş bir parçanın təhlili zamanı məlum olur ki, Edinburq danışıq dilinin nüansları müxtəlif orfoqrafik metodlar vasitəsilə əldə olunmuşdur:

"*a) Şotlandiya ingiliscəsinin bütün variantları üçün xarakterik olan sait uzanmaları orfoqrafiyada saitlərin ikiləşdirilməsi yolu ilə verilir. Belə ki, misal üçün, got çevrilib 'goat', off isə 'oaff' olur.*

b) Şotland ingiliscəsində geniş yayılmış xüsusiyyətlərdən biri saitlərin Çoser zamanına gedib çıxan köhnə üslubda tələffüz olunmasıdır. İndi müasir ingilis dili aksentlərinin əksəriyyətində about və down sözlərində olduğu kimi diftonq mövcuddur. Şotlandlar bunları öz orfoqrafiyalarında monoftoq olaraq reallaşdırırlar: "doon" və "aboot".

c) Şotland ingiliscəsinin aşağı statuslu variantının xüsusiyyətləri L-vokalizasiya (Lvocalisation) adlanır. Bu, /l/ səsinin süzgün samitdən daha çox sait kimi realozasuyasını əhatə edir. Məsələn: ball sözü baw; always sözü 'eywis', football sözü 'fitba' şəklinə düşür"[22].

---

[22] Simpson, P. Stylistics: A Resource Book for Students / P.Simpson. – Studia Philologica. VII. Psychology Press, – 2004. – p.103

Standart ingilis dilini danışanlarda regional aksentləri sezməmək mümkün deyildir. İngiltərə əhalisinin azlıqda olan əhalisi "BBC" aksenti adlanan sərhədsiz aksentlə danışırlar. Burada sosial şkalanın da rolu şəksizdir. Aşağı sosial təbəqədə yer tutan insanların danışığında regional aksent müxtəlifliklər daha qabarıq olur. "BBC" aksenti ilə danışan yuxarı təbəqə nümayəndələri coğrafi mənşələrini tam büruzə verməsələr də, öz sosial mənşələri haqqında müəyyən ipucları verirlər[23]

Fəslin dördüncü paraqrafı ***"Leksik deviasiyalar"*** adlanır. Adından da göründüyü ki, leksik deviasiyalar leksikologiyanın sərhədlərində öyrənilir. Leksik deviasiyalar ifadə vasitələrini zənginləşdirən kreativ ədəbi vasitə kimi də nəzərdən keçirilir. Leksik kollokasiya anomaliyaları, neologizmlər, funksional konversiyalar leksik deviasiya müstəvisində araşdırılır.

Spenser ingilis poeziya üslubunda *shaggy-breaded* – saqqallı (keçilər), *firie-mouthed* – odlu ağız (atlar) və s. kimi birləşmələrə olan meyli təqdim etmişdir. Hopkinsin "*The widow-making unchilring unfathering deeps*" misrasının koqnitiv mənası "*The deeps which deprive (wives) of husbands, (children) of fathers, and (parents) of children*" *(ərləri arvadsız, ataları övladsız, uşaqları valideynsiz buraxmağın dərinlikləri)* ola bilərdi[24].

İngilis poeziyası bir çox poetik neologizmlər icad etmişdir. məsələn: *blatant* "çığırqan, həyasız" (Spenser), *assassination* "qatillik" (Şekspir), *pandemonium* "həngamə, mərəkə" (Milton) və s. Xüsusi əhəmiyyətə malik olan digər söz yaratma vasitələrindən *funksional forma, sıfır derivasiya*, *funksional konversiya* və digərlərini göstərmək olar[25].

Leksik deviasiyaya dram əsərlərində, komediyalarda və digər ədəbi janrlarda rast gəlmək mümkündür. Bunun tipik nümunələrindən birini Roni Barkerin komediya janrında yazılmış

---

[23] Hughes, A. English Accents and Dialects: An Introduction to Social and Regional Varieties of English in the British Isles / A.Hughes, P.Trudgill, D.Watt. – London and New York: Routledge, – 2013. – p.8

[24] Leech, G. A Linguistic Guide to English Poetry / G.Leech – London and New York:Routledge, – 1969. – p.43-44

[25] Martsa, S. Conversion in English: A Cognitive Semantic Approach / S.Martsa – Cambridge: Cambridge Scholars Publishing, – 2014. – p.33

kiçik televiziya pyesində görürük. Pyesin baş qəhrəmanı "pismonsonasiyadan əziyyət çəkənlərin xilası üzrə loyal cəmiyyətin prezidenti" dr. Smoll Pitdir. Müraciətdəki *turbling, thugging* kimi neologizmlər mövcuddur. Amma tələffüz oxşarlığı baxımından bir sözün başqası ilə əvəz olunması daha çox komik effekt yaradır: *words* əvəzinə *worms, mouth* əvəzinə *mouse, understand* əvəzinə *underhand, saying* əvəzinə *spraying* və s[26]. Əlbəttə, əvəzedən və əvəzolunan sözlər arasındakı məna uyğunsuzluğu deviasiyanı şərtləndirən amillərdəndir.

Fəslin beşinci paraqrafında ***"Morfoloji deviasiyalar"***, altıncı paraqrafında ***"Diastratik, diatopik və diaxronik deviasiyalar"***dan bəhs edilir. Morfoloji deviasiyaların istifadəsinin stilistik effekti konseptuallaşma çərçivəsində mənanın çatdırılmasıdır. Bu zaman müəyyən morfoloji qaydalardan kənara çıxmalar yolveriləndir[27]. Bununla bağlı H.Plet orijinal yanaşmalar ortaya qoyur. Onun yanaşması C.Liçin yanaşmasından qismən fərqlidir[28].

Ümumiyyətlə, qrammatik deviasiya ya individual söz strukturu səviyyəsin, ya da sintaktik səviyyə ilə bağlıdır. Birincisi morfoloji deviasiya, ikincisi isə sintaktik deviasiya kimi səciyyələndirilir. Morfoloji deviasiya qeyri-tipik söz strukturu formasında təzahür edir. Şəkilçilər və suffikslər bir-birilə qəribə şəkildə bağlanır, yazı qaydalarındakı qeyr-müntəzəmlik ortaya çıxır. Sintaktik deviasiya zamanı söz sırası pozulur, qəribə cümlə strukturu, sintaktik qaydalara riayət edilməməsi təzahür edir.

C.Liç T.S.Eliotun istifadə etdiyi "foresuffer" sözünü buna misal göstərir. Lakin o bildirir ki, bu kimi derivasiyalar ingilis dilinin morfoloji qayda-qanunlarını pozmadığı təqdirdə, "*foresee*", "*foreknow*", "*foretell*", "*forewarn*" kimi nümunələrdə olduğu kimi *fore-* prefiksindən istifadə edərək feil düzəltməyə imkan yaradır.

---

[26] Montgomery, M. Ways of Reading. Third Edition. Advanced reading skills for students of English literature / M.Montgomery – London: Taylor & Francis e-Library, – 2006. – p.237

[27] Idafuro, A.A Stylistic Analysis of Niyi Osundare's The Eye of the Earth // Four Decades in the Study of Nigerian Languages and Linguistics: A Festschrift for Kay Williamson, – 2019. – p.542

[28] Plett, H. Literary Rhetoric: Concepts–Structures–Analyses / H.Plett – Leiden-Boston: Brill, – 2010. – p.148

Permutasiya danışıqda elementlərin bir-birini qarşılıqlı şəkildə əvəz etməsi ilə müşayiət olunur, yəni komponentlər qarşılıqlı surətdə əvəzlənir. Generativ-transformasion qrammatikada iki mərhələli mürəkkəb formal əməliyyat da permutasiya adlanır.

M.Qotti və S.Maçi orta əsr ingiliscəsində yazılmış *Mary Magdalene* pyesində diatopik, distratik və diaxronik deviasiyaları nəzərdən keçirmişlər. Onlar deviasiyanı yazı ilə bağlı ziddiyyət kimi təsnif edirdilər[29].

Tələffüz və fonetik realizasiya diatopik, diastratik və diafazik variantlar üçün xarakterik ola bilər. Bizim gəldiyimiz regiondan (diatopik xüsusiyyətlərdən), mənsub olduğumuz sosial mənşə, yaxud qrupdan (diastratik xüsusiyyətlər) və ya hansı situasiyada və kimlərlə ünsiyyətdə olmağımızdan (diafazik elementlər) asılı olaraq bizim tələffüz və leksik vahidlərdən istifadə etmə üsulumuz dəyişir[30].

Dil üslublarına nəinki ünsiyyət situasiyası ilə şərtlənmiş variantlar, habelə gender, yaş, peşə və digər variantlar da aid edilir. "Diatopik" və "diastratik" terminlərini E.Koseriu norveç linqvist L.Flaydaldan əxz etmişdir, "diafazik" terminini isə linqvistikaya müəllifin özü gətirmişdir[31].

Beləliklə, kontekstlə bağlı deviasiyalardan bəhs edərkən ingilis dilində diastratik, diatopk və diaxronik deviasiyaların mahiyyətindən məlum olur ki, sosial və regional mənşəyindən asılı olmayaraq, bütövlükdə dil cəmiyyətinin qəbul etdiyi linqvistik normalar mövcuddur.

Dissertasiyanın **"İngilis dilində ritorika, poetika və üslubiyyat əlaqələri"** adlı II fəsli dörd paraqrafa ayrılır. Bu fəslin birinci paraqrafı ***"Koqnitiv üslubiyyata gedən yol"*** adlanır. Ədəbi üslubiyyatın məhdud sahəsində müxtəlif yanaşmalar və məqsədlər vardır. Bu zaman deskriptiv üslubiyyat izahedici üslubiyyatdan

---

[29] Gotti, M. Diatopic and diastratic variation in Mary Magdalene in MS Digby 133 / Communicating Early English Manuscripts. / M.Gotti, S.Matti. – Cambridge: Cambridge University Press, – 2011. – p.55

[30] Marcand, M. Way to translate variety and register in dubling and subtitling. A case study of Walt Disney'sThe Jungle Book (1967) // – Berlin: Translating Fictional Dialogue for Children and Young People, – 2012. – p.328

[31] Нарумов, Б.П. «Архитектура языка» в концепции Э.Косериу // – Москва: Вопросы иберо-романской филологии, – 2005. № 2, – с.140-145.

fərqləndirilir. İzahedici üslubiyyat çərçivəsində izahedici məqsədin ekstrinsik (xarici), yaxud intrinsik (daxili) olduğu halları fərqləndirilir. Ekstrinsik dedikdə, müəllifin, yaxud əsərlərin xronologiyasını müəyyənləşdirmək nəzərdə tutulur, intrinsik vasitəsilə mətnin özünün mənasını izah edilir. Stilin tədqiqi, mahiyyət etibarilə, dilin istifadəsi zamanı variasiyaların öyrənilməsidir. Ümumi üslubiyyatın əsas fərziyyəsi ondan ibarətdir ki, korrelyasiyalar situasiya domenləri və dil istifadəsinin formal xarakteristikaları arasında qurula bilər. Məsələn, ingilis dilinin elmi üslubunda feilin məchul növünə əmr forması ilə müqayisədə daha çox rast gəlinir. İngilis dilində olan reklamlarda isə əmr forması məchul növə nisbətən daha çox işlədilir. Beləliklə, mətnin stilistik xüsusiyyətləri onun situasiya parametrlərində nəzərdən keçirilir.

Stilistik cəhətdən fərqlənmək üçün dilin xüsusiyyəti müqayisənin bəzi normalarından kənara çıxmalıdır. Norma *mütləq* norma, yəni müqayisəli müstəvidə nəzərdən keçirilən tədqiqat məqsədləri üçün, bütövlükdə, dil norması, *nisbi* norma kimi xarakterizə oluna bilər. *Müqərrər* və *statistikal* deviasiya arasında bu fərqlə bağlı başqa bir deviasiya mövcuddur.

Üslubiyyatın mənşəyi poetikaya, daha doğrusu, klassik dünyada hökmranlıq edən ritorikaya gedib çıxır. Qədim ritorikada bu, üslubiyyat üçün önəmli olan beş qanundan üçüncüsüdür. Qədim yunanlar sözügedən üçüncü qanunu "leksis", romalılar isə "elokutio" adlandırırdılar. Bu gün biz ona "üslub" deyirik.

Üslubiyyatın fundamental kökləri klassik ritorikaya gedib çıxır. Müasir üslubiyyat ritorika, poetika, formalizm, strukturalizm və funksionalizmin sərhədlərini aşaraq korpus, koqnitiv, pedaqoji, praqmatik, muldimodal və son zamanlarda neyroelmi yanaşmaları ağuşuna alır. Üslubiyyatçı P.Simpsonun yazdığına görə, "*üslubiyyat birinci dərəcəli yerin dilə verildiyi mətnə aid interpretasiya metodudur*"[32]. Bununla da, üslubiyyat öz sələfi ritorikadan miras aldığı metodoloji genləri daşıyır.

Tədqiqatın II fəslinin ***"Ritorika və koqnitiv üslubiyyat"*** adlı ikinci paraqrafında maraqlı nüanslara təmas edilir. Ritorika ilə

[32] Simpson, P. Stylistics: A Resource Book for Students / P.Simpson – Studia Philologica. VII. Psychology Press, – 2004. – p.2

üslubiyyat, xüsusilə koqnitiv üslubiyyat arasındakı əlaqələrin incə məqamları XXI əsr tədqiqatçılarının diqqətini cəlb edir və bu istiqamətdə araşdırmalara zəruri ehtiyac duyulur.

Aristotelə görə, inandırma üç növ müraciətlə təzahür edir: ağla müraciət (logos); emosiyalara (pathos) müraciət və danışanın xarakterinə inandırıcı müraciət. Bu üç növ müraciət inandırma məqsədlərini reallaşdırmaq üçün birlikdə mövcuddur[33]. Ritorika ingilis və Avropa ədəbiyyatının onuncu əsrdən iyirmi birinci əsrə qədər təkamül prosesi keçmiş mədəni kontekstinin vacib komponentini təşkil edir. V.Katinin təbirincə desək, müasir dövrdə ritorika siyasət, hüquq, liturgiya, reklam, ədəbiyyat və digər sahələri ağuşuna almışdır. ABŞ prezidenti Barak Obamanın sayəsində ritorika ictimai natiqlik sənətində mərkəzi rolunu bərpa etmişdir[34]. B.A La Qiyom B.Obamanın üslub perspektivlərindən bəhs edən məqaləsində B.Obamanın ritorik uğurlarının üslubi cəhətdən çox maraqlı olduğunu qeyd edir[35].

Müasir üslubiyyat öz təhlil üsul və metodlarını daim yeniləşdirir və zənginləşdirir. Bu inkişaf üslubiyyatda "koqnitiv dönüş" kimi tanınmağa başlamışdır və onun müfəssəl məntiqi əsası bu vəhdətin təməlini təşkil edir.

Beləliklə, üslubiyyat ümumi dilçiliyin dilə canlı və dinamik varlıq kimi baxan ən ciddi sahəsi hesab olunur. Koqnisiya ritorika ilə üslubiyyat arasındakı əlaqələri idrak müstəvisinə çıxarır.

Dissertasiyanın II fəslinin üçüncü paraqrafı ***"Linqvistik üslubiyyat, poetika və üslub"*** adlanır. *Bugünkü üslubiyyatın ritorika və poetikasız təsəvvür etmək çətindir. Ritorika və poetikanın əlaqələrini araşdırmaq, müasir üslubiyyatın sələfini müəyyən etmək maraqlıdır. Stilistik tədqiqatlar XXI əsrin multimodal və neyroelmi dünyasında bir çox məsələlərə aydınlıq gətirir. Yakobson özünün məşhur "Yekun bəyanat: Linqvistika və poetika" adlı essesində*

---

[33] Pearce, M. The Routledge Dictionary of English Language Studies / M.Pearce – London and New York: Routledge, – 2012. – p.157

[34] Katie, W. A Dictionary of Stylistics / W.Katie – London and New York: Routledge, – 2014. – p.369

[35] A La Guillaume, L.B. Horizons stylistiques de Barack Obama // Études de Stylistique Anglaise. À l'horizon, – 2010, ESA N° 1 (BSSA N° 34), – p. 91-105.

Şekspirin "Yuli Sezar"ından Mark Antoninin məşhur monoloqunun stilistik analizini aparır[36]*. Bu analizdə o, paronomaziya, poliptoton, apostrof, ekzordiya, modus obliquus və modus rectusu ehtiva edən birincilik dərəcələrini müşahidə edir*[37]*.*

Poeziya da öz növbəsində, ritorikanın analoqu kimi göstərilir. Hər iki elm sahəsi qrammatikadan asılıdır. Nəticə etibarilə, Platondan T.S.Eliota qədər ritorika və poetika ayrılmaz surətdə bir-biri ilə bağlıdır. Ritorika hələ də poetikanın bir hissəsi olaraq qalır. Bu günün yeni kritikasında təzahür edən şeir təhlilləri istər Aristotel-Siseron, istərsə də dar stilistik mənada daha çox ritorikdir.

Oxşar linqvistik mənanı ifadə etmək üçün müxtəlif formaların istifadəsi kimi stilistik variasiya eyni dili danışan qrupların fərqli dialektində əks olunmuşdur. Coğrafi cəhətdən ayrı-ayrı qruplar ingilis və bir sıra başqa dillərdə çoxdan öyrənilmişdir. Toxunanda qıvrılan boz-qara rəngli kiçik qurd Birləşmiş Ştatlarda müxtəlif cür adlandırılır. Məsələn: *ball bug, doodle bug, pill bug, potato bug,* və *sow bug* və s. Amerikan ingiliscəsində coğrafi cəhətdən müxtəlif leksik variantların erkən indeksi təqribən 500 dəyişən söz üçün 1500 variantı əhatə edir.

II fəslin dördüncü paraqrafı ***"Poetik formalar və linqvistik deviasiyalar***" adlanır.

Ədəbi dildə, xüsusən, poeziyada gündəlik kommunikasiya normalarından kənara çıxmalar, həmişə tədqiqatçıların diqqətini cəlb etmişdir. Dilçilik norma və qaydalarının qəsdən manipulyasiyası fikrin çoxşaxəli ifadəsinə xidmət edir. Gündəlik şifahi ünsiyyət zamanı qrammatik qaydalara ciddi riayət olunmur. Qrammatiklər, əsasən, dilin qrammatik qaydalarını müəyyənləşdirir, dildən istifadə edərkən qarşılıqlı anlaşmanı təmin etmək məqsədilə bu qaydalara əməl etməyin zəruriliyi haqqında düşünürlər. Misal üçün ingilis dilində "It is me" əvəzinə "It is I" variantı daha düzgün hesab edilir,

---

[36] Jakobson, R. Closing statement: linguistics and poetics / R.Jakobson. Ed. A. Sebeok Thomas (ed.) Style in Language. – Cambridge: MIT Press, – 1960. – p.350–377.

[37] Burke, M. Rhetoric and poetics, the classical heritage of stylistics / M.Burke. // The Routledge Handbook of Stylistics. Ed. by M.Burke. – Abingdon: Routledge, – 2017. – p.11

hərçənd ki, gündəlik danışıqda birinci variant üstünlük təşkil edir, ikinci variant isə daha çox rəsmi danışıqlarda istifadə edilir[38].

F.Cahangirov haqlı olaraq ədəbi dili bilən hər kəsin elitar mədəniyyətin daşıyıcısı olmadığını vurğulayır: *"Bəzən təhsilli şəhərlilərə tələffüzün ədəbi normasının daha sərbəst istifadəsi, bəzi üslubi səliqəsizlik, xarici sözlərin sui-istifadəsi, qismən normanın pozulması xasdır. Ziyalıların nitqi üzərində müşahidələr nitq mədəniyyətinin aşağı düşməsini göstərir"*[39].

Deviasiya gözlənilməz qaydasızlıq olduğu halda, paralelizm gözlənilməz qaydalılıq kimi xarakterizə olunur. Poetik dil bayağılığa qapılıb qalmamalı, müəyyən dərəcədə danışıq dilinə də yaxın olmalıdır. Amma bu yaxınlıq həddi aşmamalıdır. Əks halda, bayağılığın başqa bir forması təzahür edər.

Norma və deviasiyalardan bəhs edən H.Frike yazır ki, şairlər öz yaradıcılığında normadan kənara çıxa bilərlər, amma bu, özbaşınalığa səbəb olmamalıdır. Müəllif nəzəri baza əsasında üç təcrübi fərziyyə irəli sürür. Bunlar normativ olmayan estetik prinsiplərə əsaslanır: a) poetik funksiya b) daxili funksiya; c) xarici funksiya[40].

Poeziyanın gündəlik dil normalarını pozması ideyası Praqa məktəbinin nümayəndələri arasında geniş yayılmışdır. Hansı növ normadan sapmanın normal olduğunu bilmək vacibdir. Normanın özü çox nisbi anlayışdır. *I am here since five years* cümləsi qrammatik cəhətdən sapma hesab olunur. *I ain't done nothing* cümləsi yalnız standart ingilis dilinin dialektlərlə müqayisəsində qrammatik qaydalardan sapmışdır. Eynilə, *Irks care the crop-full bird?* (Robert Browning: *Rabbi ben Ezra*) kimi poetik misra "nəsrin" normaları ilə müqayisədə deviantdır[41].

---

[38] Montgomery M. Ways of Reading. Third Edition. Advanced reading skills for students of English literature / M.Montgomery – London: Taylor & Francis e-Library, – 2006. – p.231

[39] Cahangirov, F. Dil və mədəniyyət / F.Cahangirov – Bakı: Elm və təhsil, – 2014. – s.47

[40] Fricke, H. How scientific can literary evaluation be? / The Quality of Literature: Linguistic Studies in Literary Evaluation by editor Willie van Peer. / H.Fricke. – Amsterdam: John Benjamins Publishing, – 2008. – p.191-209.

[41] Katie, W. A Dictionary of Stylistics / W.Katie – London and New York: Routledge, – 2014. – p.110

Dissertasiyanın **“İngilis dilində ritorik fiqurların deviasiyalar şəklində təzahürü**” adlı III fəsli beş paraqrafa bölünmüşdür. Birinci paraqraf ***“Linqvistik deviasiya və ritorika ilə bağlı bəzi anlayışlar”*** adlanır. Burada ritorik fiqurların *sıfır dərəcəsi*, deviasiya, dəyişmə, marker, izafilik, avtokorreksiya və invariant kimi anlayışları ayırd etmək üçün XX əsr fransız linqvist, filoloq və leksikoqrafı Jan Dübuanın “Ümumi ritorika” əsərinə əsas mənbə kimi istinad edilmişdir.

İzafilik çox vaxt ritorik məqsədlərlə işlədildilir. Məsələn: *Each and every one was there* (Hər kəs orada idi). Burada eyni mənanı ifadə edən *each* və *every* sözləri izafiliklə bərabər ritorik məqsədə xidmət edərək fikirn qüvvətlənməsinə xidmət edir. Qeyd etdiyimiz kimi, izafilik dərəcəsi sintaktik səviyyədən də yan keçməmişdir. Məsələn, *The sun rises* sadə (Günəş çıxır) cümləsində təklik bildirən iki əlamətin olduğu qənaətinə gəlinir. Bu, təkdə keçmiş zamanda *The sun rose* şəklinə düşür. S.Çalker və E.Veyner bunu tək halın səthi əlaməti hesab edirlər. Müəlliflər bildirirlər ki, izafilikdən yayınmaq üçün əks tendensiya mövcuddur. Amma izafilikdən uzaq durmağın qrammatik limitinin olduğu da, xüsusilə, vurğulanır[42].

R.Kovner və Daliot-Bul semantik izafilikdən bəhs edərkən onun leksik izafiliklə iç-içə olduğunu qeyd edir və bunu dildəki alınmaların çoxluğu ilə izah edirlər[43]. Leksik alınmalar mədəni elementləri ehtiva edərək dilləri zənginləşdirir. Leksik-semantik izafilik həm də üslub zənginliklərini təqdim edir.

Nəticə etibarilə, klassik “publikaya müraciət fiqurları"nın yenidən mənalandırılmasına ehtiyac vardır: *interrogatio kvazi-sual, addubitatio kvazi-şübhə, concessio kvazi-güzəşt, permissio kvazi-icazə, subiectio kvazi-dialoq və s. kimi xarakterizə olunur*[44]. Bu

---

[42] Chalker, S. The Oxford Dictionary of English Grammar. / S.Chalker, E.Weiner. – Oxford: Oxford University Press, – 2014. – p.354

[43] Kowner, R. Japanese: The dialectic relationships between ‘Westerness’ and ‘Japaneseness’ as reflected in English loan words / R.Kowner, M.Daliot-Bul. Globally Speaking: Motives for Adopting English Vocabulary in Other Languages. Editors J. Rosenhouse, Rotem Kowner. – Toronto: Multilingual Matters, – 2008. – 250-276.

[44] Plett, H. Literary Rhetoric: Concepts–Structures–Analyses / H.Plett. –Leiden-Boston: Brill, – 2010. – p.75

fiqurlar sistemi bütün mümkün nitq aktlarının taksonomiyasını təklif edir. Bu mərhələdə təsbit etmək olar ki, ikinci dərəcəli kommunikasiya qrammatikasından törəyən nitq fiqurları normativ ritorikadan bizə məlum olan saydan daha çoxdur.

III fəslin ikinci paraqrafı ***"Ritorik fiqurlarının təsnifatı"*** adlanır.

Bir çox klassik və müasir traktatlarda ritorik fiqurlar üslubiyyatın (elocutio, lexis) mühüm komponentlərindən sayılır. Bəzi dilçilər ritorik fiqurların bu cür təsnifatlandırılmasını qəbul etmir və onları ritorikanın predmetləri kimi səciyyələndirirlər. J.Jenetin və başqalarının tədqiqatlarında göstərildiyi kimi, bu, təsadüfi olmayıb tarixi hadisələrin nəticəsidir. Ritorikanın Koraksdan başlayaraq günümüzə qədər olan tarixi elə də güclü dəyişikliyə məruz qalmamışdır. Antik model öz mühafizəkarlığını qoruyub saxlayırdı: *inventio, dispositio, elocutio, memoria, actio*. Metafora və metonimiya müasir ritorikanın əvəzedilməz nümunəvi cütlüyü sayılır[45]. Bəzən adama elə gəlir ki, ritorika qədim Afinada və Romada olduğundan özünün daha qüdrətli "İmperiya"sını yaradır[46].

Ritorikanı məhdud ritorika, natiqlik ritorikası və dialoq ritorikası olmaqla üç yerə bölüb şərh edənlər də vardır. Məhdud ritorika iki üsulla gerçəkləşə bilər. Birincisi, yüksək dərəcəli fəsahət (elokutio), ikincisi, monoloji perspektivin daraldılması ilə səciyyələnir. Birinci halda ritorika öz obyektini troplarla məhdudlaşdırır, ikincisində isə qənaət prinsipi əsas götürülür.

Alliterasiya, qafiyə, saitlərin harmoniyası və assonans fonoloji sxematik fiqurlardır. Onların hamısı fonematik ardıcıllıqların əlavə müntəzəmliyindən ibarətdir. Renessans dövrü ritorikasında fərqləndirilən paralelizm, anafora və bir çox sxemlər (anastrofa və epanalepsis kimi) formal modellərin fərqli növlərinin əlavə müntəzəmliyindən ibarət formal sxematik fiqurlardır. Ekkleziastdan (İncilə daxil olan bir kitab) gətirilən I *praise the dead which are*

---

[45] Douay-Soublin, F. "Émile" Fontanier: la rhétorique ou les figures de la Révolution à la Restauration / F.Douay-Soublin, J.P.Sermain – Québec: Presses Université Laval, – 2007. – 208 p.

[46] Reggiani, Ch. Éloquence du roman: rhétorique, littérature et politique aux XIXe et XXe siècles / Ch.Reggiani – Genève: Librairie Droz, – 2008. – 230 p.

already dead more than the living which are yet alive (Mən hələ diri olan dirilərdən daha çox ölü olan ölüləri tərifləyirəm) misrası prioritetliyin bu növünün iki daha aşkar nümunəsini ehtiva edir[47].

III fəslin üçüncü paraqrafı ***"Deviasiya və aktualizasiya"*** adlanır. C.Liçin təqdim etdiyi XIX əsr ingilis şairi Persi Biş Şellinin "Ode to the West Wind" adlı qəsidəsində deviasiyanın ədəbi mahiyyətə malik linqvistik xüsusiyyətlərin seçimi üçün kriteriyalar müəyyənləşdirdiyini görürük. Şair linqvistik ifadənin "riayət olunan normaları"ndan kənara çıxır. M.Mahlberq bu fikri əsaslandırmaq üçün C.Liçə istinad edir və deviasiyanın birinci dərəcəli, ikinci dərəcəli və üçüncü dərəcəli növlərini fərqləndirir[48].

Ön plan – oxucunun deviasiyanın linqvistik, yaxud digər formaları vasitəsilə ortaya çıxardığı bir termindir. Jan Boas Beyer öz əsərində C.Liçə istinadən istinadən ön plan və deviasiyanı "ədəbiyyatın stilistik izahının açarı" kimi nəzərdən keçirirdi[49]. Ön plan, yaxud çex dilində *aktualisace* normadan və ya ənənədən sapma kimi anlaşılır. Stefano Kotroççi rus formalistləri tərəfindən təkmilləşdirilən bu terminin Praqa dilçilik məktəbindən gəldiyini iddia edir. Bu termin daha geniş mənada vurğu, fokus, yaxud vurğulama sözləri ilə sinonim mənaya malikdir[50]. Aktualizasiya (foregrounding) dilin bütün səviyyələrində linqvistik mexanizmlərlə əlaqədardır. O, mətnin arxa planına, yaxud ədəbi janr kimi kontekstual faktorlara qarşı qoyulur. Aktualizasiya nisbi anlayışdır, çünki o, norma və təsbit olunmuş qaydalarla müqayisə olunur. Onlar kompleks kontekstual əlamətlərlə bağlıdır. Deviasiya və paralelizmi aktualizasiyaya nümunə göstərmək olar[51].

---

[47] Leech, G. N. Language in literature: style and foregrounding / G.Leech – London and New York: Routledge, – 2013. – p.27

[48] Mahlberg M. Corpus Stylistics and Dickens's Fiction /M. Mahlberg – London and New York: Routledge, – 2013. – p.20-21

[49] Boase-Beier J. A Critical Introduction to Translation Studies./J. Boase-Beier. – London: A&C Black, – 2011. – p.120

[50] Cotrozzi S. Expect the Unexpected: Aspects of Pragmatic Foregrounding in Old Testament Narratives. / Cotrozzi S. – London: A&C Black, – 2010. – p.1

[51] Nørgaard, N. Key Terms in Stylistics / N.Nørgaard, B.Busse, R.Montoro. – London: A&C Black, – 2010. – p.95

III fəslin dördüncü paraqrafında ***"Ritorik fiqurlar dildə deviant kimi"*** nəzərdən keçirilir. Müasir ədəbi tədqiqatlarda intra-tekstual və inter-tekstual analizlərdə linqvistik norma və deviasiyalar leksik, morfoloji və sintaktik səviyyələrdə özünü göstərir. M.Mahlberg C.Liçə istinadən yazır ki, deviasiya anormal düzgünlük və yanlışlıq kimi başa düşülə bilər. Deviasiya tipi norma tipinin dəyişməsi ilə dəyişir[52]. Üslubiyyatın sərhədlərinin müəyyənləşdirilməsi bu kimi dil araşdırmaları ilə sıx bağlı olmuşdur. Beləliklə, üslubiyyatın formalaşması yeni dilçiliyin yaranması ilə üst-üstə düşür. Bu elm dilçiliyin bir sıra texniki imkanlarına malikdir. C.Liç ədəbi dilin əsas xüsusiyyətini xarakterizə etmək üçün "deviant" sifətini seçilməsini münasib saymışdır. Bu, yazıçıya dilin orijinal və fərqləndirici potensialından yararlanmağa imkan verir. Dilan Tomasın istifadə etdiyi münasib linqvistik metod bir çox dilçilərin diqqətini cəlb etmiş və bəzi ipucları vermişdir. Məsələn, *all the sun long* (hər halda), *a grief ago* və *farmyards away* ifadələrində yalnız məhdud sayda isimlərin siyahısının üzə çıxdığı vəziyyətdə deviasiya isimlərin məhdudiyyətsiz seçimindən (ferma, günəş, dərd) ibarətdir. Deviant, yaxud ədəbi dilin əvvəlcədən müəyyən olunmuş xüsusiyyətləri mənasında "fiqurlar" mətnlərin müşahidə olunan və təsnif edilən əlamətləridir.

Fiqurlar, yaxud nitq fiqurları mühüm əhəmiyyətə malik olub orijinal qrammatik formalardan sapmanı ifadə edir. Fiqurları müxtəlif cür təsnifatlandırmışlar. Məsələn, bir yanaşmaya görə, onları qrammatik fiqurlar və ritorik fiqurlar olmaqla ikiyə yerə bölürlər[53]. Simon Kerl fiqurları üç qrupda təsnif edir: *orfoqrafiya fiqurları, sintaksis fiqurları* və *ritorik fiqurlar*. Orfoqrafiya fiqurlarına 1) afarezis (sözün başlanğıcından hərf və ya hecanın düşməsi), 2) sinkopa (sözün ortasından söz və ya hecanın düşməsi), 3) apokopa (sözün sonundan hərf və ya hecanın düşməsi), 4) proteza (sözün qabağına artıq bir səs əlavə edilməsi) 5) paraqoqa (hecanın

---

[52] Mahlberg A Corpus Stylistic Perspective on Dickens' Great Expectations / Contemporary Stylistics/ Edited by Marina Lambrou, Peter Stockwell. – London: A&C Black, – 2010. – p.19-32.

[53] The Standard-phonographic Visitor: [Tom 1-2] / Edited and published by Graham A. – New York: Broad Way, –1864. – p.69

anneksiyası) və 6) tmezis (mürəkkəb sözün başqa söz vasitəsilə parçalanması) daxildir[54].

Bəzi tədqiqatçılar ritorik fiqurlar kimi fəaliyyət göstərən vizual elementləri "gözlənilən nəticələrdən sapmanı" təqdim edən "məharətli deviasiyalar" kimi nəzərdən keçirirlər[55].

Dissertasiyanın III fəslinin beşinci paraqrafı ***"Ədəbi dilin linqvistik perspektivləri"*** adlanır. Formalistlər ədəbi dilə linqvistik təhrifin bir növü kimi baxır və hesab edirdilər ki, bizim hamılıqla istifadə etdiyimiz adi dildən fərqli olaraq ədəbi dil dilin xüsusi bir tipidir. Əlbəttə, ədəbi dil deviasiyalarla zəngindir, amma o demək deyildir ki, ədəbi dil normalardan təkidlə imtina etmişdir, əksinə, linqvistik deviasiyaların ağuşunda olan ədəbi dil qəbul olunmuş normalara riayət edir. Söhbət bütün cəmiyyət üzvlərinin bərabər şəkildə paylaşdığı vahid normadan gedirsə, şübhəsiz ki, bunun gerçək olması mümkün deyildir. "*Müxtəlif zümrələrin, regionların istifadə etdiyi diskursların rəngarəngliyindən çıxış edərək demək olar ki, vahid homogen linqvistik cəmiyyətdən danışmaq əbəsdir*"[56]. G.Liç yazır ki, ingilis dilinin yalnız bir neçə variantında *thou/thee/thine/thy* əvəzlikləri işlədilir. Sosial məna nöqteyi-nəzərindən *thou* "qeyri-adi dəyərə", yaxud "konnotativ mənaya"" malikdir, çünki o, dindarlıq, tarixi mərhələ, "poetiklik" kimi obertonlarla səciyyələndirilir[57].

Linqvistik norma və ədəbi dil normasının kəsişməsi dil təkamülünün əsas meyarıdır. Fikrimizcə, linqvistik norma daha çox qrammatik normanı, təsbit olunmuş zəruri qaydaları nəzərdə tutur, ədəbi dil norması isə daha geniş məna kəsb edir. Yəni ədəbi dilin ifadə imkanları intəhasızdır. Amma anomaliyalarla iç-içə olan ədəbi dilin daha geniş bəşər cəmiyyətinə çatması üçün tarazlaşdırılmış,

---

[54] Aristotle. Roberts R. Rhetoric. / Aristotle, R.Roberts. – New York: Cosimo, Inc., – 2010. – p.126

[55] Callister, M.A. Inspecting the Unexpected: Schema and the Processing of Visual Deviations / M.A.Callister, L.A.Stern. // Go figure! New directions in advertising rhetoric, edited by Edward F. McQuarrie and Barbara J.Phillips. – London: Routledge, – 2008. – p. 137-159.

[56] Eagleton T. Literary Theory: An Introduction. T.Eagleton. – Minneapolis: University of Minnesota Press, – 2008. – p.4

[57] Leech, G. A Linguistic Guide to English Poetry/ G.Leech – London and New York:Routledge, – 1969. – 256 p.

qəlibləşdirilmiş, dəqiq qaydalar qoyulmuş müvafiq normativ işarələr sisteminə ehtiyacı vardır.

Tarixi deviasiyaların əksəriyyəti sistemli xarakter daşıyır və görünür ki, ingilis ədəbi dil normasının başa çatmamış formalaşma prosesinin nəticəsidir.

Deməli, linqvistik deviasiyalar zəngin, canlı və orijinal dilin müşayiətçisi rolunda çıxış etmiş, dərin fikirlərin ifadəsinə əvəzsiz vasitə olmuşdur.

Tədqiqatın **nəticə**lərini qısa şəkildə aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Ünsiyyət prosesində vacib rolu olan dil norması üçün sabitliyin olması şərtdir. Amma statik təsir bağışlayan normanın funksionallaşması və bunun nəticəsində dilin canlanması, çoxşaxəli və rəngarəng fikirlərin ifadə olunması linqvistik deviasiyaların zəruriliyini şərtləndirir;

2. Linqvistik normanın preskriptiv və deskriptiv növləri vardır. Bunların hər ikisi eyni dərəcədə əhəmiyyətlidir. Deskriptiv norma danışanların nitqində əks olunan dil formalarının inikasıdır. Preskriptiv norma isə qrammatik qaydalar toplusudur. Tədqiqat nəticəsində deskriptiv normaların ritorik müstəvidə deviasiyalarla sıx bağlı olduğu aşkarlandı;

3. Deviasiya dilin adi işlənməsindən fərqli olaraq normadan kənara çıxan anomaliyaları ifadə edir. Aydın olur ki, dilin bu gün üçün deviasiya hesab olunan istifadə forması hansısa tarixi mərhələdə norma sayılıb. Ona görə də, deviasiyanı tarixi norma da adlandıra bilərik;

4. İngilis ədəbi dilinin formalaşması hələ dilin qrammatik normalarının sabitləşmədiyi dövrlərdə deviasiyalarla müşayiət olunan dialekt və şivələrin ağuşunda meydana gəlmiş və cilalanma mərhələlərini keçərək bu günümüzə gəlib çatmışdır.

5. İngilis dilində kontekstlə bağlı deviasiyalar diastratik, diatopk və diaxronik deviasiyaların mahiyyətini səciyyələndirir. Qrammatik qaydalara riayət olunması mətndə söz ehtiyatının strukturlaşmış xarakteri, qaydaların pozulması isə fərqli deviasiyalarla şərtlənir. Deviasiyaların normativ qrammatikalarda üslubi cəhətdən uğursuz hesab olunması fikri ilə razılaşmaq olmaz.

Çünki onlar mümkün poetik və ritorik lisenziyalar kimi üslubiyyatın çərçivəsinə daxildir;

6. Üslubiyyatın fundamental köklərinin ritorika ilə bağlı olması qənaətinə gəlmək olar. Tam əminliklə söyləyə bilərik ki, müasir üslubiyyat – ritorika, poetika, strukturalizm və funksionalizmin sərhədlərini aşaraq – korpus, koqnitiv, praqmatik, muldimodal və neyroelmi aspektləri də əhatə edir. Deməli, koqnitiv üslubiyyata gedən yol mütləq şəkildə klassik ritorikadan keçir. Buraya fonologiya, leksikologiya, morfologiya, sintaksis, semantika, praqmatika, qrafologiya, diskurs, üslub, dialektologiya və s. kimi ən müxtəlif dil səviyyələri və linqvo-koqnitiv proseslər daxildir;

7. Ritorika və koqnitiv üslubiyyat arasındakı əlaqələrin araşdırılıb müəyyənləşdirilməsi linqvistik deviasiyalar və ritorikanın real mahiyyətinin üzə çıxarılmasına xidmət edir.

8. Ölçü, çərçivə, intensivlik kimi bədii ifadə vasitələrindən istifadə edən poetika diskurs və ritorika ilə qırılmaz bağlara malikdir. İdiolekt və dialektlərdə mövcud olan individual markerlərin elmi təhlili ilə səciyyələndirilən linqvistik üslubiyyat norma, yaxud deviasiya hüdudlarında yerləşərək linqvistik variasiyalar zamanı normanın mövcudluğunu və identifikasiyasını müəyyənləşdirir. Bu da, öz növbəsində linqvistik üslubiyyat, poetika və üslub münasibətlərinə aydınlıq gətirir;

9. İndividual kreativliyə söykənən poetik formalar linqvistik deviasiyalarla əhatə olunmuşdur. Poetik dildə bəlli məqsədlərlə yol verilən qrammatik anomaliyalar səhv deyildir. Çərçivəyə sığmayan, hüdud tanımayan linqvistik deviasiyalar yoxdur. Sərt qrammatik qaydalardan azad mətnin anlaşılmasında semantikanın və insan idrakının rolu önə keçir ki, bu da dilçilikdə antroposentrizm baxışları ilə səsləşir;

10. Ritorika, linqvistika və üslubiyyat bir-birilə qırılmaz əlaqədə olan elm sahələridir. Ritorika qədim dövrlərdə malik olduğu praktik əhəmiyyətini artıq itirmişdir. Düzdür, bu gün qədim Romada olduğu kimi, siyasətçilərin, natiqlərin, vaizlərin hazırlanmasında ayrıca ritorikadan geniş istifadə olunmur. Amma müasir dövrdə başqa elmlərlə inteqrasiya etmiş ritorika həyatın bütün sahələrinə

nüfuz etmişdir. O, öz mürəkkəb və mükəmməl metodları ilə həm də üslubiyyat və linqvistika ilə yanaşı addımlayır;

11. Ritorik fiqurlar sistemi bütün mümkün nitq aktlarının təsnifat prinsiplərini təklif edir. Buradan aydın olur ki, ikinci dərəcəli kommunikasiya qrammatikasından törəyən nitq fiqurları çoxluq təşkil edərək çox sayda deviasiyaları təqdim edir. Mövcud qaydaları pozan bu deviasiyalar dil formasının simasını dəyişir;

12. Ritorik fiqurlar dildə deviant, yaxud qabaqcadan müəyyən edilmiş hadisələr kimi təzahür edir. Tarixən dildəki anomaliyalar, ədəbi mətnlərdəki sapmalar, müxtəlif məhəlli dialekt və şivələrin ədəbiyyata hakim kəsilməsi ədəbi dilin inkişafını ləngitməmiş, əksinə, ədəbi dil normalarını zamanın süzgəcindən keçirmiş və daha geniş seçim imkanları qazanmışdır. Linqvistik deviasiyalar zəngin, canlı və orijinal dilin müşayiətçisi rolunda çıxış etmiş, dərin fikirlərin ifadəsinə əvəzsiz vasitə olmuşdur. Ədəbi dilin linqvistik deviasiyalarla müşayiəti fənlərarası inteqrasiya müstəvisində ritorikanın mövqeyini müəyyənləşdirməklə koqnitiv linqvistikanın inkişafına mühüm töhfələr verir.

Dissertasiyanın əsas müddəaları aşağıdakı müxtəlif elmi jurnallarda dərc olunmuş məqalə və tezislərdə öz əksini tapmışdır:

1. Bağırzadə, Z.M. İngilis dilində beynəlmiləl sözlərin mətndə məna çalarlarının interpretasiyası // – Bakı: Azərbaycan Universiteti, İpək yolu, – 2013. – s.85-93;
2. Bağırzadə, Z.M. Ədəbi və bədii dilin qarşılıqlı əlaqəsi normativ müstəvidə // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2015. № 6, – s.191-197;
3. Bağırzadə, Z.M. Müasir ingilis dili qrammatikasına ənənəvi yanaşma: preskriptiv və deskriptiv perspektivlər // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2015. № 9, – s.165-169;
4. Bağırzadə, Z.M. İngilis dilində norma – deviasiya əlaqəsi // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2018. № 14, – s.167-174;

5. Bağırzadə, Z.M. Dil normalarının deskriptiv və preskriptiv növləri // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2018. № 1(109), – s.104-107;
6. Bagirzadeh, Z.M. Rhetoric, Linguistics and Stylistics // – Moscow: Russian Linguistic Bulletin, – 2019. № 3 (19), – p.41-44;
7. Bağırzadə, Z.M. Diastratik, diatopik və diaxronik deviasiyalar // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2019. № 5, – s.81-89;
8. Bağırzadə, Z. Ritorika və koqnitiv stilistika // – Bakı: Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2019. № 2 (110), – s.69-72;
9. Багирзаде, З.М. Лингвистические девиации и стилистические особенности в языке литературы// "Вопросы науки и практики" IV Международная научно-практическая конференция. – Москва: – 19 апреля, – 2019, – с.84-88
10. Bağırzadə, Z.M. Müasir dilçilik baxımından ritorika və neoritorika // Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 50 illiyinə həsr olunmuş "Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri" Respublika konfransı. – Bakı: Azərbaycan Universiteti, – 24 oktyabr, – 2019, – s.25-26
11. Bağırzadə, Z.M. Nəsimi şeirində linqvistik-poetik deviasiyaların təzahürü // "İmadəddin Nəsiminin poetik dili və Azərbaycan ədəbi dilinin tarixi məsələləri" Respublika elmi konfransı. – Bakı: AMEA, Nəsimi adına Dilçilik İnstitutu, – 29 noyabr, – 2019, – s.48-51
12. Bağırzadə, Z.M. Ədəbi dilin inkişaf perspektivləri // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2020. № 8, – s.169-179
13. Bağırzadə, Z.M. İngilis dilində linqvistik deviasiyaların poetik formalarda təzahürü // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2020. № 9, – s.68-76
14. Bağırzadə, Z.M. Linqvistik deviasiya və ritorik fiqurlarla bağlı bəzi anlayışlar // – Bakı: Azərbaycan Universiteti, İpək yolu, – 2022. № 3, – s. 61-68;

15. Baghirzadeh, Z.M. Linguistic deviation and actualization // – Satteldorf: German International Journal of Modern Science, – 2022. № 39, – s.19-21;
16. Baghirzadeh, Z.M. Outlines in English Linguistic Deviations // 10th International Conference on Language, Literature & Culture: “Fashion as Material Culture”. – Ankara: –September 15-16, – 2023, – p.45.

Dissertasiyanın müdafiəsi 04 aprel 2024-cü il tarixində saat 12.00 Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 17 fevral 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.02.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 37862 işarə

Tiraj: 100